1969 **Heydər ƏLİYEV:** "Mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm" 2024



# Milli-ictimai şansı zamanında gerçəkləşdirən TARİXİ ŞƏXSİYYƏT

***Müasir Azərbaycan dövlətçiliyinin möhkəm özülü tarixi şəxsiyyət Heydər Əliyevin ideyaları, nəzəri irsi əsasında formalaşmışdır. Bütöv bir təlim xarakterli ideyaların fəlsəfi qayəsi, mahiyyəti onun davamçılarının yeni cəmiyyət quruculuğu yoluna daim işıq salır. Bu təlim müxtəlif ictimai-iqtisadi sistemlərarası keçidin elmi-nəzəri əsasları olmaqla müstəqil bir dövlətin fəaliyyət strategiyası, xalqın özünüdərk fəlsəfəsidir. Azərbaycanda demokratiyanın mahiyyəti, spesifikası, cəmiyyətdə və insan şüurunda mütənasib inkişafı, milli-siyasi təşkilatlanma, dövlətçilik məsələləri, ictimai-siyasi və mədəni-mənəvi problemlər Ulu Öndərin ideyaları əsasında şərh olunmaqla həllini tapır. Yəni ölkəmizin siyasi, iqtisadi və mədəni-mənəvi inkişaf strategiyası böyük tarixi şəxsiyyət, Ümummilli Liderimiz tərəfindən müəyyənləşdirilmişdir.***

İstənilən cəmiyyətin inkişaf etməsi, modern hala gəlməsi üçün sosial-iqtisadi quruculuq işlərinin və islahatların rolu mühüm əhəmiyyət kəsb edir. Görkəmli dövlət başçılarının, böyük sərkərdələrin məharəti, ilk növbədə, ölkənin sosial-iqtisadi inkişafının təmini, daxildə əmin-amanlığın yaradılması, dövlətçiliyin qorunması, onun müdafiəsinin təşkil edilməsi ilə müəyyən olunur. Dövr dəyişdikcə, dövlət başçılarının üstünlüyünü müəyyən edən prioritetlər də dəyişir. Dövlət rəhbərlərinin müxtəlif dövrlərdə bu və ya başqa meyarlarla ölçülən öncüllük mövqeləri statik olmadığından islahatlarla dövlətçiliyi, onun maddi-texniki fundamentini möhkəmləndirməklə, böyük sosial və mədəni-mənəvi iz qoyan liderlər tarixin yaddaşına həkk olunur. Görkəmli şəxsiyyətlərin tarixdə qalma səbəbləri - apardığı müharibələr, keçirdiyi sosial-iqtisadi islahatlar, quruculuq və yaradıcılıq işləri, elmə-təhsilə, müəllimə verdiyi yüksək qiymətlər, hərblə başladığı işləri quruculuqla başa çatdırmalarıdır. Tarixin müxtəlif dönəmlərində yaşayan və bu gün də xidmətləri ilə anılan görkəmli dövlət başçıları, sərkərdələrin adları da bəllidir.

*“Qısa müddətdə Heydər Əliyevin nüfuzu yüksəldi, tanındı, İttifaq və dünya miqyasında daha da məşhurlaşdı. Sanballı siyasətçi təfəkkürü və mədəniyyəti nümayiş etdirən Heydər Əliyev fenomeni elə bir miqyas kəsb etdi ki, SSRİ kimi böyük ölkəni məharətlə, yüksək intellektlə idarə edə biləcək şəxsin Heydər Əliyev olması fikri həm İttifaq, həm də dünya miqyasında səslənməyə başlamışdı. Hətta həmin dövrdə SSRİ-nin ən məşhur dövlət xadimləri də bunu etiraf edirdi.”*

Tarixi şəxsiyyətlərin əsas funksiyalarından biri də açılan imkanları, yaranan ictimai-siyasi şansları zamanında dəyərləndirməklə ideyaları gerçəkləşdirmək bacarığıdır. Məhz şəxsiyyətin bu müstəsna rolu iqtisadi-siyasi formasiyadan asılı olmayaraq ona öncüllük bəxş edir. Tarixdən bəllidir ki, yaranan ictimai-siyasi imkanlar düzgün dəyərləndirilmədikdə hansı fəlakətlər və uğursuzluqlar baş verir.

## Geri qalmış aqrar respublikadan inkişaf etmiş sənaye ölkəsinə

**1969-1982.** Ötən əsrin 70-ci illəri keçmiş İttifaq miqyasında inkişafda geriləmə, reqressiya, o dövr üçün xarakterik terminlə ifadə etsək, "durğunluq" olsa da, ölkəmizdə intibah və inkişaf kimi xarakterizə olunur. Doğrudan da həmin illərdə vahid sosialist iqtisadi sistemində ümumi mənfi problemlərdən izolyasiya olunmaqla bütün sahələrdə - iqtisadiyyatda, kənd təsərrüfatında, elm və mədəniyyətdə və s. sahələrdə çox böyük uğurlar əldə olunmuşdu. Statistik rəqəmlər də bunu təsdiq edir: Ötən əsrin 70-80-ci illəri arasında ölkəmizdə sənaye və kənd təsərrüfatı məhsulları istehsalı və yük dövriyyəsi, həmçinin ÜDM istehsalı orta Ümumittifaq göstəricisindən artıq idi. Yeri gəlmişkən, qeyd edək ki, 1985-ci ildən sonra ÜDM 70-ci illərlə müqayisədə 17 faiz azaldığından iqtisadiyyat güclü şəkildə zəifləməyə başladı.

Həmin illərdə pambıq, buğda və üzüm istehsalı 2 dəfə artmış, adambaşına düşən orta gəlirin səviyyəsi 62 faizdən 80 faizə yüksəlmişdi. Ölkəmizdə sənaye sektorunun artımı İttifaq respublikaları arasında ən yüksək həddə - 47 faiz olmuşdu.

Ötən əsrin 60-cı illərində təbii resursları istismar edilən, əsasən "neft və pambıq respublikası" kimi tanınan Azərbaycanda 70-ci illərdə neft sənayesində gələcək müstəqillik dövrü üçün müstəsna əhəmiyyət kəsb edən işlər reallaşdırıldı. İllər sonra "Əsrin müqaviləsi"nin predmeti olacaq "Azəri" və "Günəşli" yataqları da o dövrdə kəşf edildi. Xarici mütəxəssislərin iştirakı ilə İttifaq büdcəsindən böyük vəsait cəlb olunmaqla müstəqillik dövrünün neft sənayesində əvəzsiz rola malik Bakı Dərin Özüllər Zavodu da məhz həmin illərdə tikildi. Milli memarlıq üslubu ilə paytaxtımıza gözəllik verən, bu gün Ulu Öndərin adını daşıyan saray da həmin illərin məşhur tikililərindəndir. Həmçinin Bakıda "Ulduz" Elektrik Cihazqayırma, Bakı Məişət Kondisionerləri zavodları və bir çox digər sənaye müəssisələri tikilib istifadəyə verilmişdi.

70-ci illərin ortalarından etibarən respublikamız üzümçülük və şərabçılıq üzrə ixtisaslaşmağa başladı və Şamaxı, Göygöl, Tovuz, Qazax, Cəlilabad, Füzuli kimi rayonlarda iri üzümçülük təsərrüfatları yaradıldı. İldə 1-1,5 milyon ton üzümçülük məhsulları istehsal edildi. 1980-ci ildə ölkəmizdə 299 ixtisaslaşmış üzümçülük təsərrüfatı, ilkin və təkrar emalla məşğul olan 29 zavod vardı. Bu sahədə çalışanların sayı isə 143.000 nəfər idi. Xalq təsərrüfatının bu sahəsindən əldə olunan gəlirlə (1 ildə təqribən 1 milyard 800 milyon rubl) insanların rifah halı getdikcə yaxşılaşırdı. SSRİ-də üzümçülük və şərabçılıq məhsullarının 25 faizi Azərbaycanda istehsal olunurdu.

Bütün sahələrdə belə tərəqqi Azərbaycana xas olan əlamət idi. İttifaqdakı ümumi durğunluq kontekstində inkişaf paradoksu ancaq şəxsiyyət faktoru ilə izah edilə bilər. O illərdə Azərbaycan elə bir səviyyəyə çatmışdı ki, bu, keçmiş İttifaq respublikaları arasında ən yüksək nailiyyət sayılırdı. Azərbaycan artıq geri qalmış aqrar respublikadan inkişaf etmiş sənaye ölkəsinə çevrilmişdi. Bunu sonralar keçmiş SSRİ-nin rəhbər şəxslərinin söylədikləri fikirlər də təsdiq edir. 70-80-ci illərdə baş verən hadisələrə və gedən proseslərin konturlarına diqqət etdikdə aydın sezilir ki, gələcək müstəqil Azərbaycanın sosial-iqtisadi və mədəni-mənəvi potensialı yaradılırmış. Atılan addımlar, aparılan quruculuq işləri elə məqsədyönlü və planlı xarakter kəsb edib ki, sanki bugünkü müstəqilliyimizin ilkin təməl daşları məhz ötən əsrin 70-ci illərində atılmaqla böyük əsas yaranmışdı. Azərbaycanın iqtisadi, sənaye potensialı formalaşdırılmış, şəhərlər, qəsəbələr, kəndlər abadlaşdırılmış, Bakıda yeni mikrorayonlar, yaşayış massivləri (Günəşli, Əhmədli və s.) salınmış, əhalinin rifah halı daha da yaxşılaşmışdı.

Görkəmli şəxsiyyət Heydər Əliyevin respublikaya rəhbərliyi illəri ölkədə elm və təhsilin də inkişaf dövrü kimi xarakterizə olunur. Belə ki, həmin illərdə 5-dən artıq yeni ali məktəb yaradılmaqla 100-dən çox müasir ixtisaslar açılıb, SSRİ-nin ən nüfuzlu ali məktəblərində xalq təsərrüfatının zəruri sahələrində, ehtiyac duyulan ixtisaslar üzrə azərbaycanlı gənclərin ali təhsil alması təşkil edilməklə yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsinə nail olunub. Maddi-texniki baza zənginləşdirilməklə təhsil müəssisələrinin çoxşaxəli şəbəkəsi yaradılıb. O cümlədən ali hərbi məktəb açılmaqla milli hərbi kadrlar yetişdirilib. Bu isə əsl lider uzaqgörənliyi ilə gələcək dövlət müstəqilliyi üçün ən vacib və zəruri sahədə - hərbi sahədə milli intellektual potensialın hazırlanması demək idi.

Ümumiyyətlə, həmin illərdə yüksəkixtisaslı elmi kadrlar yetişdirilmiş, mədəniyyətin, təhsilin səviyyəsi yüksəlmiş və bu bəşəri keyfiyyətlər dünya səviyyəsində nümayiş etdirilə bilmişdi.

Tarixin ayrı-ayrı dövrlərindəki dövlətçilik ənənələrinə uyğun qaydada dilimizin də milli ədəbi dilin təməlində xüsusi rəsmi dil üslubu formalaşmışdır. Ulu Öndərin xüsusi səyləri nəticəsində sovet dövründə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasına (1978) Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edildi. Ölkəmiz müstəqillik qazandıqdan sonra isə dilimizin dövlət dili və diplomatik dil kimi işlədilməsinə real fundament yarandı.

Ulu Öndərin xarici nümayəndə heyətlərilə görüşlərində, rəsmi tədbirlərdə çıxışlarında səlis, rəvan və aydın nitqi Azərbaycan dövlət dilinin rəsmi-işgüzar dil üslubu kimi formalaşması və yayılmasının əsasını qoymaqla böyük bir məktəb rolunu oynamışdı.

Bu gün əsrlərin sınağından çıxan peşəkar dil üslublarını ehtiva edən Azərbaycan dili böyük daxili potensialı və zəngin söz ehtiyatı ilə bütün fəaliyyət sahələrini əhatə edən mükəmməl milli dil səviyyəsinə qalxmışdır.

Bu deyilənlər görkəmli dövlət xadimlərinin, siyasi liderlərin, filosofların gəldiyi qənaəti bir daha təsdiq edir – *müstəqillik qazanmaq üçün iki amil olmalıdır: tarixi şans və tarixi şəxsiyyət.* Doğrudan da həmin illərdə tarixi şəxsiyyətimiz olsa da, ictimai-siyasi şans hələ yetişməmişdi. Dünyada problemlərin həlli supergüc olan ölkənin müdaxiləsi olmadan həll oluna bilmədiyi bir vaxtda ondan xilas olaraq müstəqillik qazanmaq xəyalpərəstlik olardı. Bəs ölkəmizin başçısı, tarixi şəxsiyyət həmin zamanlar nə etmək istəyirdi? Bu barədə Ulu Öndər özü deyib: *"Mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm".* Belə məqamda təkrar da olsa, U.Çörçillin "Siyasətçi növbəti seçkilər, əsl lider isə gələcək nəsillər barədə düşünür" kəlamını xatırlamaq yerinə düşər.

Məhz 70-ci illərdə Azərbaycanın sabahkı taleyi haqqında düşünən Ümummilli Lider gələcək müstəqillik üçün imperiya daxilindəki hakimiyyət sükanından istifadə etməklə güclü iqtisadi, mədəni-mənəvi potensial hazırladı. Bu haqda ən dəyərli fikri Türkiyənin 9-cu prezidenti S.Dəmirəl demişdir: "Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin keçmiş zamanda xidmət göstərdiyi vaxt yaradılmışdır. İndi yenidən canlanma gedir".

Qəlbində müstəqil Azərbaycanla bağlı geniş, qlobal planları gəzdirən, 1969-1982-ci illərdə imkansızlıqda imkan axtaran tarixi şəxsiyyət Heydər Əliyev 15 respublika arasında qabaqcıl sosialist respublikası yaratmaqla yanaşı, ölkəmizin gələcək müstəqilliyi naminə qeyri-mümkünləri belə mümkün etməyə nail olmuşdu.

**1982-1987.** Keçmiş Sov.İKP MK-nın baş katibi L.Brejnev Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevi Moskvaya işləməyə gətirmək niyyətində olsa da, məlum səbəblər üzündən bu, baş tutmadı. 1982-ci ilin payızında Sov.İKP MK-nın baş katibi seçilən Y.Andropov bu məsələdən xəbərdar olduğu üçün (həmin dövrdəki müsahibələrində bunu dəfələrlə vurğulayıb) özünə dəstək, Siyasi Büronun tərkibini yeniləşdirmək naminə "Azərbaycan sənin üçün çox kiçikdir", ... "gəl əl-ələ verib işləyək", - deyərək, bu fikri reallaşdırdı – görkəmli dövlət başçısı Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü olmaqla SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Yeri gəlmişkən, qeyd edək ki, Heydər Əliyev Siyasi Büronun yeganə azərbaycanlı, həm də müsəlman üzvü idi. Həmin illərdə Sov.İKP MK-nın baş katibi, Siyasi Büro üzvləri və namizədlərin Heydər Əliyev haqqında dedikləri fikirlərdən seçmələr belə idi: "Qabiliyyətlidir, bacarıqlıdır, ciddi rəhbərdir, ünsiyyətcildir, prinsipialdır, gözəl təşkilatçıdır, möhkəm iradəlidir, zəngin mənəviyyata malikdir, siyasi miqyası və səviyyəsi çox yüksəkdir, təmiz və üstün mədəniyyətə sahibdir, hökuməti real surətdə - tam gücü ilə işlədə bilir və s.".

*“Məhz 70-ci illərdə Azərbaycanın sabahkı taleyi haqqında düşünən Ümummilli Lider gələcək müstəqillik üçün imperiya daxilindəki hakimiyyət sükanından istifadə etməklə güclü iqtisadi, mədəni-mənəvi potensial hazırladı. Bu haqda ən dəyərli fikri Türkiyənin 9-cu prezidenti S.Dəmirəl demişdir: "Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin keçmiş zamanda xidmət göstərdiyi vaxt yaradılmışdır. İndi yenidən canlanma gedir".”*

Görkəmli dövlət adamının Nazirlər Soveti sədrinin birinci müavini kimi rəhbərlik etdiyi sahələrin miqyası çox böyük idi, ən operativ məsələlərlə məşğul olurdu. Dövrünün ən böyük zərbəçi tikintisi hesab olunan BAM-ın inşasına 1970-ci illərdən başlansa da, işlər ləng gedirdi. Məhz bu səbəbdən həmin sahəyə rəhbərlik də Heydər Əliyevə tapşırıldı. Qısa müddətdə BAM-ın qapısı hesab olunan Tayşet stansiyasından başlayaraq uzunluğu 4000 kilometrdən çox olan magistralın çəkilişində ciddi dönüş yarandı. Hazırda magistralın üzərində olan stansiyalardan biri (Anqoya) Heydər Əliyevin şərəfinə onun adını daşıyır.

## “Onun namizədliyi istisna edilir... Milliyyətinə görə”

Kremldə fəaliyyət göstərdiyi ilk 3 il ərzində idarəetmə qabiliyyəti, əqli gücü ilə prinsipial məsələləri müzakirə etməklə, həlli yolunu müəyyənləşdirən Heydər Əliyevin rəhbərliyində olan bütün sahələrdə tərəqqi və canlanma açıq-aydın hiss olundu. Məhz buna görə də qısa müddətdə Heydər Əliyevin nüfuzu yüksəldi, tanındı, İttifaq və dünya miqyasında daha da məşhurlaşdı. Sanballı siyasətçi təfəkkürü və mədəniyyəti nümayiş etdirən Heydər Əliyev fenomeni elə bir miqyas kəsb etdi ki, SSRİ kimi böyük ölkəni məharətlə, yüksək intellektlə idarə edə biləcək şəxsin Heydər Əliyev olması fikri həm İttifaq, həm də dünya miqyasında səslənməyə başlamışdı. Hətta həmin dövrdə SSRİ-nin ən məşhur dövlət xadimləri də bunu etiraf edirdi.

Y.Andropovun ölümündən sonra baş katib olan K.Çernenko da qısa müddət yaşadı. Kremldə əvvəl olduğu qaydada hakimiyyət uğrunda mübarizə daha da kəskinləşdi. Həmin dövrü Heydər Əliyev belə xarakterizə edirdi: *"Xaricdə mənim adım da çəkilirdi. Amma mən qətiyyən buna iddialı deyildim".* Bu mövqeyə baxmayaraq, Siyasi Büro üzvlərinin bəziləri istəyirdilər ki, birinci şəxs Heydər Əliyev olsun. K.Çernenkonun ölümündən sonra 1985-ci il martın 11-də keçirilən Siyasi Büronun iclasına qədər baş katibliyə real namizədin kimin olması haqqında ciddi və qızğın müzakirələr getdi. O dövrdə SSRİ rəhbərliyindən 3 ən yüksək vəzifəli şəxsin bu barədə fikirlərini xatırlayaq:

Sov.İKP MK-nın baş katibi M.Qorbaçov: "Heydər Əliyevin baş katib olması barədə fikri... mən hətta təsdiq edə bilmərəm. Lakin görünür, bunun səbəbi aydındır. Hər halda, kim isə slavyanlardan olmalı idi".

SSRİ Nazirlər Sovetinin sədri N.Tixonov üzrxahlıqla demişdir: "Orada ya rus olmalıdır, ya da heç olmazsa, ukraynalı, yaxud belarus".

Bu fikirlərdəki qeyri-müəyyənliyə həmin dövrlərdə SSRİ xarici işlər naziri işləmiş A.Qromıko 90-cı illərdə səmimi müsahibələrindən birində aydınlıq və konkretlik gətirdi: "Siyasi Büro üzvlərindən üçü cavandır - Q.Romanov, M.Qorbaçov və H.Əliyev. Axırıncı mənə daha xoşdur. Onun rəhbərliyi zamanı Azərbaycan (əsasən də kənd təsərrüfatı) çox sürətlə inkişaf etmişdi. Əliyev - gözəl təşkilatçıdır, təmiz, qürurlu və nəcib adamdır. Təəssüf ki, onun namizədliyi istisna edilir... Milliyyətinə görə".

## Həsəd, qısqanclıq və siyasi sui-qəsd

1985-ci ilin martında baş katib seçilən M.Qorbaçov bütün bu məqamları və siyasi mübarizə meydanında özünün lider məziyyətlərindən məhrum olduğunu çox qabarıq hiss edirdi. Siyasi Büroda da nəzəri fəallığı, əməli fəaliyyəti ilə digərlərindən yüksəkdə dayanan parlaq, görkəmli şəxsiyyət, hökuməti tam gücü ilə işlədə bilən, tələbkar rəhbər, təbiətən lider olan Heydər Əliyevin varlığı onun üçün ciddi problemə çevrilmişdi. O görürdü ki, rejimin incəliklərinə yaxşı bələd olan, milli dilin və mədəniyyətinin layiqli daşıyıcısı olmaqla digər milli, mədəni və dini baxışları qiymətləndirməyi bacaran, rus dilində ən mahir natiqlər kimi səlis danışan, ekstraordinar şəxsi keyfiyyətləri ilə Heydər Əliyev ölkənin ən nüfuzlu rəhbərləri sırasındadır. Bu isə M.Qorbaçovda həsədə, sonda qısqanclığa səbəb oldu. Heydər Əliyevə qarşı diskriminasiya prosesi başlandı. Heydər Əliyevin mərkəzi dövlətin siyasi rəhbərliyində, sözün yaxşı mənasında, nələr edə biləcəyini anladıqlarından onu ali hakimiyyət piramidasında və əhali arasında yüksəldiyi böyük nüfuz zirvəsindən salmaq planı hazırlandı. Təxminən 2 ildən sonra, 1987-ci ildə Heydər Əliyev əsassız və gülünc bəhanələrlə, necə deyərlər, siyasi sui-qəsdlə Siyasi Büronun və mərkəzi hökumətin rəhbər tərkibindən çıxarılmaqla onun, müvəqqəti də olsa, böyük siyasətdən gedişinə nail olundu.

Bir həqiqət məlumdur ki, görkəmli dövlət adamları, tarixi şəxsiyyətlər hakimiyyətdən və ictimai-siyasi arenadan çəkildikdə və ya uzaqlaşdırıldıqda böyük boşluq yaranır və cəmiyyətin tarazlığı pozulduğundan xeyli müddət oriyentasiyasını müəyyənləşdirə bilmir. Məhz buna görə də həm keçmiş SSRİ-də, həm də Azərbaycanda reqressiya və deqradasiya prosesləri sürətləndi.

**1987-1993.** İttifaq miqyasında başlanan tənəzzül meyli ideoloji təbliğatlarla pərdələnməyə çalışılır, real-həqiqi cari vəziyyət ölkənin siyasi rəhbərliyinə sərf etmədiyindən məqsədyönlü şəkildə vətəndaşlara bildirilmirdi. Lakin başladılan prosesin dönməz olduğunu hiss etdiklərindən respublikaların son nəticədə müstəqil olmaması üçün mərkəz rəhbərliyi sovet dövründə əldə olunmuş iqtisadi və mədəni-mənəvi potensialı məhv etmək naminə genişmiqyaslı tədbirlər həyata keçirdi. Ulu öndər Heydər Əliyev bu barədə sonralar demişdir: *"O illərdə xalqların, o cümlədən Özbəkistan və Azərbaycan xalqlarının milli azadlığı və dövlət müstəqilliyi üçün şərait yetişməyə başlayan vaxtlarda son dərəcə çox əngəllər törədilirdi".* Həqiqətən də həmin illərdə mərkəz tərəfindən məşhurlaşmış "Rəşidovun işi" və "Əliyevşina" kimi "fəaliyyətlərin" fundamentində hansı çirkin niyyətlərin dayandığı hamıya yaxşı məlumdur.

***(davamı növbəti sayımızda)***

**Hümbət MUSAYEV.**